**UOT** 342.9

**Şəhriyar CƏFƏRZADƏ**
*Bakı Dövlət Universiteti, doktorant*
*Bakı Ağır Cinayətlər Məhkəməsi,*
*hakim köməkçisi*
*e-mail:shahriyarjafari11@gmail.com*
DOI: https://doi.org/https://doi.org/10.62130/YOVA8375

# İNZİBATİ İCRAAT ZAMANI HÜQUQLARIN MÜDAFİƏSİ VASİTƏLƏRİ

**XÜLASƏ**

*Bu məqalədə inzibati aktların icrasının dayandırılmasının insan hüquqlarının müdafiəsinin təmin edilməsində prosessual institut kimi iştirakı araşdırılır. Məqalədə qeyd olunur ki, İnzibati Prosessual Məcəllənin 41.1-ci maddəsində nəzərdə tutulmuşdur ki, inzibati aktdan şikayət verilməsi haqqında iddia bu aktın icrası ilə bağlı dayandırıcı qüvvəyə malik deyildir. Belə ki, bu normadan aydın olur ki, maraqlı şəxsin hüquqi müdafiə vasitələrindən istifadə edib-etməməsindən asılı olmayaraq, inzibati orqan Ukrayna Qanununun 81-ci və ondan sonrakı maddələrinə uyğun olaraq inzibati akt tərtib edə bilər. Gələcəkdə, yəni məhkəmədə prosesi uduzaraq, iddiaçı çox vaxt heç bir şey almır, çünki inzibati aktın hüquqi nəticələri artıq baş vermişdir. Nəticədə belə qənaətə gəlinir ki, iddiaçı iddia üzrə yekun qərar qəbul etməzdən əvvəl inzibati orqan tərəfindən inzibati aktın icrasının qarşısını almaq üçün qanunla nəzərdə tutulmuş üsul və vasitələrdən fəal şəkildə istifadə etməlidir.*

***Açar sözlər:*** *insan hüquqları, inzibati icraat, hüquqların müdafiəsi, müvəqqəti xarakterli müdafiə tədbiri*

İnzibati hüququn əsas prinsiplərindən biri olan qanunçuluq prinsipi hüquqi müəyyənliyin təmin edilməsinə yönələrək, inzibati icraatın qanunvericiliyə uyğun aparılmasını təmin edir. İnzibati hüquqda qanunçuluq prinsipinin tətbiq edilməsinin məqsədi ondan ibarətdir ki, son nəticədə yekun inzibati akt müvafiq normativ hüquqi aktlarla uyğunluq təşkil etsin. "İnzibati icraat haqqında" Qanunun 58.1-ci maddəsində də nəzərdə tutulmuşdur ki, inzibati akt Azərbaycan Respublikasının Konstitusiyasına, bu Qanuna və digər əlaqədar hüquq normalarına uyğun qəbul edilməlidir. Eyni zamanda qeyd etmək lazımdır ki, inzibati hüququn təməl prinsiplərindən biri həm də etimadın qorunması prinsipidir. Bu prinsip maraqlı şəxsin inzibati akta etibar etmək, inzibati orqanın davranışını, qəbul etdiyi akta qanunauyğun və düzgün hesab etmək, məzmununa uyğun davranmaq və ona etimad göstərmək hüququnu özündə ehtiva edir. Etimadın qorunması doktrinası o zaman tətbiq edilir ki, inzibati orqanın səlahiyyətləri çərçivəsində hərəkətləri, xüsusilə də qəbul etdiyi inzibati aktlar vətəndaşda publik (ümumi hüquq) maraqlara zidd olmayan qanuni gözləntilərin yaranması ilə nəticələnsin. Həmin prinsip "İnzibati icraat haqqında" Qanunda da öz əksini tapmışdır. Belə ki, Qanunun 13-cü maddəsində qeyd edilmişdir ki, inzibati orqan mövcud inzibati praktikaya uyğun hərəkət etməyə borcludur. Yalnız ictimai maraqların tələb etdiyi hallarda mövcud inzibati praktika yeni praktika ilə dəyişdirilə bilər. Yeni inzibati praktika davamlı olmalı və ümumi xarakter daşımalıdır. Eyni zamanda həmin Qanunun 2.0.8-ci maddəsində qarşılıqlı etimada inzibati orqanla fiziki və ya hüquqi şəxs arasındakı qarşılıqlı münasibətlərdə müəyyən qanuni hərəkətlərə və ya inzibati praktikaya əsaslanan inam kimi anlayış verilmişdir.

Qeyd edilən prinsiplər inzibati orqanlar tərəfindən inzibati aktların qəbul edilməsi prosesini tənzimləyir. Bununla yanaşı, vətəndaşların bəzi hallarda inzibati aktları könüllü şəkildə icra etməkdən imtina etməsi və həmin aktları inzibati

və ya məhkəmə qaydasında mübahisələndirməsi hallarına da rast gəlinir. İnzibati orqanların hakimiyyət gücündən istifadə edərək tətbiq etdikləri səlahiyyətlərdən ən əhəmiyyətlisi inzibati aktlardır ki, bunlar da maraqlı şəxslər üçün məcburi xarakter daşıyır. İdarətmə orqanlarının bu aktları hüquqa uyğunluq prezumpsiyasına əsaslandığından hər hansı təsdiqə ehtiyac olmadan məcburi xarakter alır və həmin aktların mübahisələndirilməsi də onun icrasını dayandırmır [4, 64]. Belə olan halda inzibati aktla pozulma və ya pozuntunun davam etməsi riskinin dayandırılması üçün müvəqqəti xarakterli müdafiə tədbirləri tətbiq edilir. Müvəqqəti xarakterli müdafiə tədbirləri inzibati mübahisələr zamanı hüquqların müdafiəsinin səmərəli mexanizmi kimi çıxış edir. Vacib prosessual institut kimi müvəqqəti xarakterli müdafiə tədbirlərinin tətbiqi icraatı zamanı qəbul edilən qərarlar şəxslərə yekun hüquqlar vermir, yalnız müvəqqəti təsir göstərir. Qeyd edilən qaydada icraatın aparılmasındakı əsas məqsəd iddia icraatı qaydasında baxılacaq iş üzrə yekun məhkəmə qərarı qəbul edilənədək iddiaçının subyektiv hüquqlarının qorunmasının təmin edilməsindən ibarətdir.

İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin bir sıra qərarlarında formalaşdırdığı hüquqi mövqeyə əsasən, dövlət orqanı tərəfindən yol verilən səhvlərə görə məsuliyyəti dövlət daşıyır və belə səhvlər maraqlı şəxsin hesabına düzəldilə bilməz (Gashi Xorvatiyaya qarşı iş üzrə 2007-ci il 13 dekabr tarixli, §40 və Stolyarova Rusiya Federasiyasına qarşı iş üzrə 2015-ci il 29 yanvar tarixli, §49 Qərarlar). İnzibati ədliyyə mərhələsində isə məhkəmələr inzibati aktın məqsəd və xarakterini, inzibati icraat mərhələsində yol verilmiş pozuntuların bu aktın qəbul edilib-edilməməsinə göstərəcəyi təsiri nəzərə alaraq, şəxsin qanuni gözləntiləri ilə publik maraqların nisbətinin qorunması və Konstitusiyanın müdafiə etdiyi dəyərlər arasında ədalətli tarazlığın təmin edilməsi məqsədilə işdə olan bütün sübutları qiymətləndirməklə və bütün prosessual imkanlardan istifadə etməklə şəxsin hüquqlarının qeydiyyata alınması vəzifəsinin müvafiq inzibati orqanın üzərinə qoyulub-qoyulmaması barəsində ədalətli qərar qəbul etməlidir [2].

İnzibati Prosessual Məcəllənin 40-cı maddəsində maraqlı şəxslərin müvəqqəti xarakterli müdafiə tədbiri olaraq məhkəməyə iki növ təminat tədbirinin tətbiq edilməsi barədə ərizənin verilməsi nəzərdə tutulur: İnzibati aktın icrasının dayandırılması və iddianın təmin edilməsinə yönəlmiş digər təminat tədbirləri. Burada əsas diqqət yetirilməli olan məqam inzibati aktın icrasının dayandırılmasına dair ərizələrin verilməsidir. Məlumdur ki, inzibati aktların məcburi icra gücü olur və onların mübahisələndirilməsi inzibati aktın icrasını dayandırmır. Bununla belə həmin mübahisələrə baxılması uzun müddət çəkə bilər ki, bu da sonda vətəndaşın hüquqlarının ağır şəkildə pozulması ilə nəticələnə bilər. Belə hallara tikilinin sökülməsi, gömrükdə saxlanılan malların məhv edilməsi və s. bu kimi hallar göstərilə bilər. Məhz bu ehtiyacı təmin etmək üçün qanunverici inzibati aktın icrasının dayandırılması institutunu müəyyən etmişdir.

Bir qayda olaraq, inzibati aktların icraatının dayandırılması “İnzibati icraat haqqında” Azərbaycan Respublikası Qanununun 2.0.11-ci maddəsində nəzərdə tutulmuş mənada əlverişsiz (yükləyici) inzibati aktlara münasibətdə olur. Belə ki, həmin maddəyə əsasən əlverişsiz (yükləyici) inzibati akt - maraqlı şəxsi hüquqdan məhrum edən və ya onun hüququnu məhdudlaşdıran, yaxud onun üzərinə müəyyən vəzifə (vəzifələr) qoyan aktdır. Qeyd edilən aktların mübahisələndirilməsindəki məqsəd vətəndaşın hüququna edilmiş müdaxilənin müvəqqəti olaraq dayandırılmasıdır. İnzibati aktın icrasının dayandırılmasına dair qərardad çıxarılarkən məhkəmə işin faktiki və hüquqi hallarının ilkin araşdırılması nəticəsində iddianın böyük ehtimalla uğurlu olacağı ilə bağlı qənaətə əsaslanır və sonradan məhkəmənin bu mövqeyi işin müəyyən edilmiş hallarından asılı olaraq dəyişə bilər və nəticədə məhkəmə inzibati aktı hüquqa uyğun hesab etməklə iddianı, ümumiyyətlə, rədd edə bilər. İnzibati aktın hüquqa uyğunluğu məsələsi üzrə “ilk baxışda” gəlinən nəticə ilə mübahisəyə baxılması sonunda gəlinən nəticə bir-birindən fərqli ola bilər. Ona görə də müvəqqəti xarakterli müdafiə tədbirinin tətbiqinə dair icraat zamanı işin hüquqi hallarına münasibət bildirərkən məhkəmə icraatın həmin anında onda formalaşmış “ilk baxışda” hüquqa uyğun-

luqla bağlı qənaətdən hərəkət etməlidir [1, 11].

Bəzən inzibati aktlar ikili xarakterə malik ola bilir. Belə ki, İPM-nin 42-ci maddəsində nəzərdə tutulmuşdur ki, üçüncü şəxs başqa şəxsə ünvanlanmış və həmin şəxs üçün əlverişli olan inzibati akta qarşı iddia qaldırdığı hallarda, məhkəmə üçüncü şəxsin ərizəsi əsasında müvəqqəti xarakterli müdafiə barədə qərardad qəbul edə bilər. İkili təsirə malik olan inzibati aktlar bir tərəfə münasibətdə əlverişli şərait yaratdığı halda, digər tərəfə münasibətdə əlverişsiz şərait ortaya çıxır. İkili xarakterə malik inzibati aktlarla bağlı İPM-in 42.2-ci maddəsinə əsasən, bu situasiyalarda da inzibati aktın icrasının dayandırılması haqqında qərardadın qəbulu ilə bağlı həmin Məcəllənin 41-ci maddəsində təsbit edilmiş müddəalar tətbiq olunur. Digər müdafiə tədbirlərinin həyata keçirilməsi zamanı hansı müddəaların tətbiq olunmasını isə İPM-in 42-ci maddəsi tənzimləmir. Lakin güman etmək olar ki, belə hallarda analogiya qaydasında İPM-in 43-cü maddəsi tətbiq oluna bilər [3, 285].

İnzibati aktların bir növü olan qanunsuz əlverişsiz inzibati aktlar da bu və ya digər formada insan hüquqları və azadlıqları ilə bağlı olur, onların icra olunması vətəndaşlara müəyyən məhdudiyyət gətirir. Bu səbəbdən inzibati aktın icrasının dayandırılması institutu hüquqların müdafiəsində olduqca əhəmiyyətli prosessual institut kimi çıxış edir. Onun tətbiq edilməsi nəticəsində qanunsuzluğu ehtimal edilən əlverişsiz inzibati aktların icrası təxirə salınmış olur. Bununla da mübahisələndirilən inzibati aktın icrası dayandırılmaqla bərpası mümkün ola bilməyəcək və ya xeyli dərəcədə çətin olacaq zərərin vurulmasının qarşısı əvvəlcədən alınmış olur

**İstifadə edilmiş ədəbiyyat:**


1. Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 4 oktyabr 2023-cü il № 14 Qərarı.
2. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 19 noyabr 2021-ci il tarixli Qərarı.
3. A. Köniqsmann. Azərbaycanda İnzibati Məhkəmə İcraatı // “Hüquq ədəbiyyatı” nəşriyyatı. Bakı, 2013, 400 s.
4. Mehdiyev. F. İnzibati hüquq. Dərslik. Bakı, 2010, 515 s.


**Шахрияр ДЖАФАРЗАДЕ**

## СРЕДСТВА ЗАЩИТЫ ПРАВ ВО ВРЕМЯ АДМИНИСТРАТИВНОГО ПРОИЗВОДСТВА

### РЕЗЮМЕ

В данной статье рассматривается участие приостановления исполнения административных актов как процессуального института в обеспечении защиты прав человека. В данной статье указано, что статьей 41.1 Административного процессуального кодекса предусмотрено, что иск об оспаривании административного акта не имеет приостанавливающего действия в отношении исполнения этого акта. Таким образом, из этой нормы ясно, что независимо от того, воспользовалось заинтересованное лицо средствами правовой защиты или нет, административный орган может исполнить административный акт в соответствии с 81-й и последующими статьями Закона Украины после принятия административного акта. В дальнейшем, то есть проиграв процесс в судебном процессе, истец зачастую ничего не получает, поскольку правовые последствия административного акта уже наступили. В итоге делается вывод о том, что до принятия окончательного решения по претензии истцу необходимо активно использовать предусмотренные законодательством методы и средства для предотвращения исполнения административного акта административным органом.

***Ключевые слова:*** *права человека, административное производство, защита прав, мера временной защиты.*

**Shahriyar JAFARZADA**

**MEANS OF PROTECTION OF RIGHTS DURING ADMINISTRATIVE PROCEEDINGS**

**SUMMARY**

This article discusses the participation of the suspension of the execution of administrative acts as a procedural institution in ensuring the protection of human rights. This article states that Article 41.1 of the Code of Administrative Procedure stipulates that the claim on disputing an administrative act does not have suspensory effect in relation to the execution of that act. Thus, it is clear from this norm that regardless of whether the interested person has used legal remedies or not, the administrative body can execute the administrative act in accordance with the 81st and following articles of the Law of Ukraine after adopting the administrative act. Later, that is, by losing the process in the litigation process, the plaintiff often does not get anything, because the legal consequences of the administrative act have already arisen. In the end, it is concluded that until the final decision on the claim is made, it is necessary for the claimant to actively use the methods and means provided by the legislation to prevent the implementation of the administrative act by the administrative body.

***Key words:*** *insan hüquqları, inzibati icraat, hüquqların müdafiəsi, müvəqqəti xarakterli müdafiə tədbiri.*